Eynulla Mədətli , Anar Qafarov

# HEYDƏR ƏLİYEV: DÖVLƏTÇİLİK, MİLLİ ÖZÜNÜDƏRK, MƏNƏVİ DƏYƏRLƏR

Bakı -2023

**Azərbaycan İlahiyyat İnstitutunun Elmi Şurasının
29 dekabr 2023-cü il tarixli qərarı ilə nəşrə tövsiyə edilmişdir.**

**"Ulu Öndər Heydər Əliyevin
anadan olmasının 100 illiyinə həsr olunur".**

**Elmi redaktor: Ziba Ağayeva**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun
"Heydər Əliyevin siyasi irsi və azərbaycançılıq"
şəbəsinin baş elmi işçisi, fəlsəfə elmləri doktoru*

Eynulla Mədətli, Anar Qafarov. **HEYDƏR ƏLİYEV: dövlətçilik, milli özünüdərk, mənəvi dəyərlər.**
"Ocaq Nəşriyyat Poliqrafiya" MMC, Bakı, 2023, - 252 s.

Kitabda Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycan dövlətçiliyinin qurulmasında, ölkəmizdə dövlətçilik şüurunun, milli özünüdərkin və milli kimliyin bərqərar edilməsində, qayəsini və mayasını azərbaycançılığın təşkil etdiyi milli ideologiyanın formalaşdırılmasındakı xidmətləri tarixi-fəlsəfi təhlilə cəlb edilmişdir. Eyni zamanda, ölkəmizdə milli dövlətçiliyin inkişafı və möhkəmləndirilməsi, milli mənəvi dəyərlərin ümumbəşəri dəyərlərlə ahəngdar əlaqələndirilməsi sahəsində Heydər Əliyev siyasətinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi və zənginləşdirilməsi öz əksini tapmışdır.

Kitab elmi ictimaiyyət, həmçinin geniş oxucu dairəsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978-9952-535-05-01

© Eynulla Mədətli, Anar Qafarov, 2023

# Mündəricat

**Giriş** .......................................................................... 5
**1. Dövlətin və dövlətçilik şüurunun mahiyyət və əhəmiyyəti** .......................................................... 14
1.1. Dövlətçilik şüuru: mövcudluğumuzun əsas qarantı kimi ........................................................ 14
1.2. Dövlətçilik şüurunun determinantları ..................... 16
**2. Milli özünəqayıdış və özünüdərkin mahiyyət və əhəmiyyəti** .......................................................... 22
**3. Heydər Əliyev və Azərbaycanda müstəqil dövlət quruculuğu** .......................................................... 27
**4. Heydər Əliyevin Azərbaycan Xalq Cümhuriyyətinə münasibəti və varislik məsələsi** ........... 50
**5. Milli mənsubiyyət və özünəqayıdış Heydər Əliyevin azərbaycançılıq təlimi müstəvisində** .................. 69
**6. Milli - mənəvi dəyərlərin əsas determinantları istiqamətində Heydər Əliyevin dövlət siyasəti** ................ 90
6.1. Heydər Əliyevin xalq mədəniyyətinə münasibətinin fəlsəfəsi .................................................. 90
6.2. Heydər Əliyevin mədəniyyət siyasətində milli-mənəvi dəyərlərə münasibət .............................. 104
6.3. Heydər Əliyevin dil siyasəti ..................................... 113
6.4. Heydər Əliyevin mədəni maarifçilik siyasəti: ədəbi və mədəni irsin qorunması ................................... 119
6.5. Heydər Əliyevin milli mətbuat siyasəti.................... 124
6.6. Heydər Əliyevin din siyasəti..................................... 127
6.6.1. Milli-mənəvi dəyərlərin əsası: din-dövlət münasibətləri müstəvisində .......................... 127

6.6.2. İslam həmrəyliyi təcrübəsi və milli-mənəvi dəyərlər. .......... 170
**7. Heydər Əliyevin irsində multikulturalizm və bu sahədə Azərbaycan təcrübəsinin elmi-nəzəri əsasları .......... 184**
7.1. Multikulturalizm siyasəti aspektindən dünyanın mənzərəsi .......... 184
7.2. Prezident İlham Əliyevin multikulturalizm siyasəti, ölkə və dünya reallıqları müstəvisində. .......... 204
**8. Heydər Əliyev siyasətinin uğurlu nəticəsi: Qarabağ zəfəri və onun fəlsəfi-tarixi dərki .......... 223**
**Nəticə .......... 239**
**İstifadə olunmuş ədəbiyyat .......... 244**

## Giriş

Azərbaycanın dövlət müstəqilliyinin dönməzliyi və əbədiliyinin memarı və təminatçısı, müstəqilliyin mürəkkəb və təhdidlərlə dolu on ilində ölkəmizə uğurla rəhbərlik etmiş və xalqımızın əbədi Ulu Öndəri olmaq haqqını qazanmış Heydər Əliyevin parlaq şəxsiyyətinin cazibəsi hələ keçən əsrin son rübündə yaxın - uzaq bir sıra ölkələrdə maraq və diqqət doğurmuşdu. Azərbaycana rəhbərlik etdiyi və SSRİ hökuməti başçısının birinci müavini olduğu zamanlarda dəmir iradəsi, nəsillərə nümunə olacaq yüksək rəhbərə xas olan insani keyfiyyətləri və mahir idarəçilik qabiliyyəti ilə bütün həmkarlarından üstün olan Heydər Əliyevdə digər yüksək sovet rəhbərlərində olmayan fitri bir qüvvə var idi – bu onun kamil şəxsiyyətinin insanları çəkən möhtəşəm cazibə qüvvəsi idi. Yeriyəndə yerişiylə, baxanda baxışıyla, güləndə gülüşüylə, danışanda inamlı və qətiyyətli nitqi ilə insanları elə cəlb edirdi ki, hər kəsdə sövqi-təbii hüsn-rəğbət oyadırdı. Həm öz vətənimizdə, həm də xarici ölkələrdə Heydər Əliyevlə bir dəfə, ötəri olsa da, görüşən şəxs üçün həmin an ömürlük xatirəyə çevrilirdi.

Müstəqil Azərbaycan dövlətində Heydər Əliyev xaqımızın iradəsi ilə hakimiyyətin məsuliyyət yükünü çiyinlərinə götürəndə dövlətçiliyimizin taleyinin həll olunduğu ölüm-dirim zamanı idi. Lakin Heydər Əliyev ölkəni düçür olduğu fəlakətdən qurtaracağına əmin idi, xalq da Heydər Əliyevə inanır, bu çıxılmaz vəziyyətdən qurtuluş yolunu ancaq onda görürdü. Bu həmin vaxtlar idi ki, SSRİ dağılandan sonra hakimiyyətlərin varisliklə keçmiş

kommunist respublika rəhbərlərinə ötürüldüyü yeni müstəqil ölkələrdə inkişaf olmasa da, ən azı sabitlik mövcud idi. Bizim ölkəmizdə isə müstəqilliyin elan edilməsindən dərhal sonra, öncə moskvapərəst, sonra isə radikal müxalifətçi qüvvələrin hakimiyyətə yiyələnmələri və aparılan tamamilə yanlış daxili və xarici siyasət nəticəsində müstəqilliyin itirilmə təhlükəsi Heydər Əliyevin böyük siyasətə qayıdışını tələb edirdi. Ölkəmizdə baş verən hadisələri qonşu ölkələrdə maraqla izləyirdilər, ölkəmizin müqəddəratına nikbinliklə baxanlar çox az idi. Belə bir ağır vəziyyətdə yeni yaranmış, hələ dünya ictimaiyyətində bir müstəqil dövlət kimi çoxlarının tanımadığı, diqqətə almadığı ölkəmizdə yalnız şəxsiyyətinin gücü, siyasi müdrikliyi və idarəçilik məharəti ilə Heydər Əliyev beynəlxalq qurumların, dünya ictimaiyyətinin və ayrı-ayrı dövlət başçılarının diqqətini Azərbaycana cəlb etməyə nail oldu.

1996-cı ilin əvvəllərindən İranda, Pakistanda, Əfqanıstanda, sonra Ukraynada diplomatik xidmətdə çalışdığı zamanlarda bu sətirlərin müəllifi (E.Mədətli) həm həmin ölkələlərdə, həm də diplomatik korpusda müstəqil Azərbaycan dövlətinin başçısı kimi Heydər Əliyev şəxsiyyətinə necə böyük maraq və diqqət göstərildiyinin şahidi olmuşdur. Müstəqilliyimizin dostları Heydər Əliyev şəxsiyyətinə dərin ehtiram bəslədiklərini izhar edir, xoş arzularını bildirirdilər. Xalqımıza xor baxan, istiqlalımızı və inkişafımızı gözü götürməyənlər Heydər Əliyev şəxsiyyətinə şübhə və inamsızlıq yaymaqla ölkəmizi gözdən salmağa cəhd göstərirdilər. Lakin belə cəhdlər əbəs idi, çünki, Heydər Əliyevin hər bir xarici ölkəyə səfəri, beynəlxalq təşkilatda çıxışı, yaxud ölkəmizə gələn dövlət rəhbərləri, rəsmi şəxslərlə görüşü müstəqil

Azərbaycan dövlətçiliyinin ən yaxşı təqdimatı kimi çöyük təsir gücünə malik idi.

Keçmiş SSRİ məkanında Heydər Əliyevi tanıtmağa ehtiyac yox idi. Sovet İttifaqı rəhbərliyində yüksək vəzifə tutduğu zamanda xalqlar arasında qazandığı nüfuz və hüsn-rəğbət Azərbaycan dövlətinə qarşı xoş münasibətə, inam və ehtirama çevrilirdi. Hətta, rəsmi səviyyələrdə səsləndirirdilər ki, Heydər Əliyev kimi dövlət başçınız olduğu üçün fəxr etməlisiniz.

Qeyd edilməlidir ki, Ulu Öndərin vəfatından sonra onun xatirəsinə həsr edilən hər hansı tədbir onu tanıyanların və ehtiram edənlərin maraqlı və hüsn-rəğbət dolu xatirələri ilə müşayət olunurdu. Bu sətirlərin müəllifi bir sıra ölkələrdə Heydər Əliyev şəxsiyyətinə, onun zəngin siyasi irsinə göstərilən maraq və ilginin yaxından şahidi olmuşdur. Yalnız, vaxtilə yanaşı çalışdığı, sonra isə müstəqil dövlətlərin rəhbərləri olmuş prezidentlər deyil, böyük dövlətlərin və beynəlxalq qurumların rəhbərləri də, əvvəldən şəxsi tanışlıqları olmadıqları hallarda belə, Heydər Əliyevin uca şəxsiyyətinin onun yüksək dövlətçilik məharətini necə tamamladığını hiss edir, onda xalqımızın, xalqımızda isə onun gücünü görürdülər.

Heydər Əliyev şəxsiyyətinin, onun yüksək rəhbərlik keyfiyyətlərinin elmə, mədəniyyətə, incəsənətə, tarixə, ədəbiyyata, yaradıcı ziyalılara xüsusi münasibətinin buraxdığı dərin izlər silinməzdir. Heydər Əliyev haqlı olaraq canından artıq sevdiyi Azərbaycanın, onun müstəqil dövlətçiliyinin simvoluna çevrilmişdir. Fəlsəfə elmləri doktoru Füzuli Qurbanov yazır: "Azərbaycanı duymadan və sevmədən Heydər Əliyevi şəxsiyyət, dövlət xadimi və lider kimi

adekvat anlamaq mümkün deyildir. Azərbaycan tarixini, mədəniyyətini, mənəvi-əxlaqi dəyərlərini, fəlsəfi və poetik təfəkkürünün özəlliklərini bilmədən Ulu Öndəri azərbaycanlı kimi dərk etmək imkansızdır. Heydər Əliyevin şəxsiyyət kimi davranışları, vətəndaş olaraq mövqeyi və dövlət xadimi (dövlət başçısı-lider vəhdətində) kimi fəaliyyətinin obyektiv qiymətləndirilməsi Azərbaycana olan Böyük Sevgidən keçir".[1]

Qeyd etmək lazımdır ki, Heydər Əliyev həm SSRİ məkanında, həm də onun hüdudlarından kənarda müxtəlif xalqların və dövlətlərin hüsn-rəğbətini və etimadını qazanmışdı. Onun dövlətçilik məharəti, tərəfdaş dövlətlərə və onların rəhbərlərinə hər zaman göstərdiyi diqqət, ədalətin və beynəlxalq hüququn təmin edilməsinə dair etdiyi çağırışlar, yüksək beynəlxalq kürsülərdən verdiyi ismarışlar haqlı olaraq onun müxtəlif xalqların nümayəndələri tərəfindən bir şəxsiyyət kimi sevilməsinə yol açırdı.

Burada təkcə bir faktı qeyd etmək yerinə düşər ki, Ulu Öndərin vəfatından cəmi bir il sonra Kiyevin mərkəzinə yaxın Qluboçiçka küçəsində Heydər Əliyevə qoyulmuş heykəl onun xatirəsinə Ukraynanın o zamankı prezidenti Leonid Kuçmanın, bütünlükdə Ukrayna xalqının sonsuz ehtiramının göstəricisi idi. 2010-cu ildə həmin ərazidə bənzərsiz Heydər Əliyev parkının salınması qısa müddətdə bu parkı və Heydər Əliyev abidəsini kiyevlilərin sevilən ziyarət yerinə çevirdi, xüsusilə gənc evlənənlərin Heydər Əliyev abidəsi ətrafında, ölkəmizin tarix və mədəniyyətinin

---

[1] Füzuli Qurbanov, Heydər Əliyev və yeni liderlik: fəlsəfi-elmi təhlil, Bakı: Elm və təhsil, 2023, səh. 6.

simvolları, parlaq nümunələri olan Şeyx Səfi xalı şəlaləsi, Bakımızın İçərişəhər qala divarlarının bənzəri park tikililəri qarşısında videoseansları həm Heydər Əliyevi, həm ölkəmizi gənc nəsillərə yaxından tanıdır.

Bu kimi nümunələr dünyanın bir sıra ölkələrində vardır və bunlar, ilk növbədə Heydər Əliyev şəxsiyyətinə və Azərbaycan dövlətinə hörmət və etiramın təzahürləridir. Maraqlıdır ki, Ukraynada Heydər Əliyevin Sovet dövründə bu ölkənin iqtisadi-mədəni inkişafına və yaradıcı şəxslərinə göstərdiyi diqqət və qayğı ilə yanaşı, müstəqil Azərbaycana rəhbərlik etdiyi zaman Ukraynaya dost köməyini əsirgəmədiyi insanların yaddaşında qalmış və bu kimi hisslər bir neçə yüz min soydaşımızın yaşadığı bu böyük ölkənin Azərbaycan Respublikası ilə münasibətlərinin dostluq və qarşılıqlı etimad əsasında qərarlaşmasına öz təsirini göstərmişdir.

Yuxarıda yalnız bir ölkədə Heydər Əliyev irsinə göstərilən maraq və ehtiramdan söz açdıq. Amma Heydər Əliyev şəxsiyyətinin miqyası yaxın –uzaq bir çox ölkələri əhatə edir və onun hakimiyyət və idarəçilik məharəti haqlı olaraq dünyanın tanınmış siyasi liderləri, dövlət başçıları tərəfindən yüksək qiymətləndirilmişdir. Heydər Əliyevin siyasi irsini öyrənib təhlil etmək, onun dövlətçilik quruculuğu sahəsindəki zəngin nəzəri fikirlərini və praktiki təcrübələrini müqayisəli şəkildə araşdırıb müvafiq nəticələr çıxarmaq, bu nəhəng ictimai-siyasi fəaliyyətin fəlsəfəsinin bütövlükdə, onun çoxsahəli istiqamətlərini isə ayri-ayrılıqda dəyərləndirmək gərəkli olduğu qədər də məsuliyyətli və çətin işdir. Bunu səmimi etiraf etmək hər birimizin, xüsusilə də tədqiqatçıların borcudur.

Məlum olduğu kimi, Ulu Öndər Heydər Əliyev haqqında tanınmış alimlər, dövlət xadimləri, jurnalistlər tərəfindən həm ölkəmizdə, həm də onun hüdudlarından kənarda çoxlu kitablar nəşr edilib, bir-birindən maraqlı xatirələr yazılıb, sənədli filmlər çəkilib.

Heç şübhə yoxdur ki, bu istiqamətdə iş gələcək nəsillər tərəfindən də davam etdiriləcəkdir. Çünki Heydər Əliyev elə bir dahi şəxsiyyətdir ki, onun həyat yolu, zəngin idarəçilik təcrübəsi, doğma xalqı və vətəni qarşısında xidmətləri müasir nəslimiz və gələcək nəsillər üçün sözün əsl mənasında böyük örnək, ən yaxşı nümunə və əsl vətənpərvərlik məktəbidir. Bir sözlə, Heydər Əliyevin həyat və siyasi fəaliyyət yolu, onun parlaq şəxsiyyətinin və düşüncəsinin milli xarakteri və xüsusiyyətləri özü bir azərbaycançılıq təlimi məktəbidir.

Azərbaycan xalqı tarix boyu malik olduğu dövlətçilik ənənələrini, milli dəyərləri, nailiyyətləri, ali mənəvi keyfiyyətləri məhz Heydər Əliyev zamanında təkmilləşdirərək dayanıqlı müstəqil dövlətini qurmuşdur. Tarixi təcrübə göstərir ki, hər bir xalqın əlverişli tarixi şəraitdə öz milli-etnik soykökünə qayıdışı, əsrlər boyu əxz etdiyi milli-mənəvi dəyərlər və düşüncə sisteminə söykənərək özünüməxsusluğunu qorumaq fürsəti əldə etməsi tarixi şəxsiyyət fenomeninin fövqəladə missiyası ilə şərtlənir. Heydər Əliyevin 1969-cu ildə Sovet Azərbaycanın rəhbərliyinə gətirilməsi Sovet rəhbərliyinin ümid etdiyi kimi, nəinki Azərbaycan SSR-in iqtisadi dirçəlişini təmin etdi, hətta bu görkəmli dövlət xadiminin dönməz iradəsi, məqsədyönlü ictimai-siyasi və mədəni-mənəvi inkişaf proqramı və bunun ardıcıl şəkildə yerinə yetirilməsi nəticəsində çox qısa bir zamanda



Hörmətli oxucu,

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.